06 (1261) 16-22 fevral 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “MİNGƏÇEVİR ŞƏHƏRİNİN BÜTÜN QAFQAZIN ELEKTROENERGETİKA MƏRKƏZİ KİMİ YENİ DÖVRÜ BAŞLAYIR”

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Bakıda “Gülüstan” sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində deyib.




**O, bildirib:** - Bu gün biz Mingəçevir şəhərində yeni 1280 meqavat gücündə elektrik stansiyasının təməlinin qoyulması mərasiminə toplaşmışıq. Əminəm ki, biz yaxın zamanlarda – 2025-ci ildə bu stansiyanın açılışını qeyd edəcəyik. Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq.

Mingəçeviri nəinki Azərbaycanın, ümumiyyətlə, Qafqazın enerji mərkəzinə çevirən Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun rəhbərliyi və təşəbbüsü ilə ötən əsrin 70-ci illərində - daha doğrusu, 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının təməli qoyulmuşdur. Böyük stansiyanın birinci blokunun 1981-ci ildə Heydər Əliyevin şəxsən iştirakı ilə açılışı olmuşdur.

Ümumi generasiya gücü 2400 meqavat olan stansiya ölkəmizin nəinki enerji potensialını, ümumiyyətlə, sənaye potensialının böyük hissəsini ödəyərək imkan verdi ki, hətta müstəqilliyimizin ən ağır illərində, ilk illərdə Azərbaycanda elektrik enerjisi ilə təchizat təmin edilsin. Təbii ki, illər keçdikcə istənilən infrastruktur köhnəlir, o cümlədən Mingəçevir Elektrik Stansiyasının yenidən qurulması prioritet məsələlərdən biri idi və mənim göstərişimlə 2018-ci ildə stansiyanın tamamilə yenidən qurulması prosesi başlamışdır. Qısa müddət ərzində - artıq iki ildə 8 blok tamamilə yenidən qurulmuş və istifadəyə verilmişdir. Beləliklə, 2020-ci ildə stansiya, necə deyərlər, öz əzəli gücü ilə yenidən işləməyə başlamış və 2400 meqavat generasiya gücünə malik olmuşdur.

Mingəçevir Elektrik Stansiyasının önəmi İkinci Qarabağ müharibəsi zamanında bir daha bəlli oldu. İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Stansiya Azərbaycanın daxili resursları çərçivəsində inşa ediləcək. Ona görə biz az vəsaitlə böyük enerji potensialına malik oluruq. Eyni zamanda, ödəniləcək vəsaitin 60 faizi “Azərenerji”-nin öz vəsaiti hesabına təmin ediləcək. Qalan 40 faiz isə kreditlər vasitəsilə təmin ediləcək. İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil. İtaliya bizim strateji tərəfdaşımızdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksək səviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa edilmişdir və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Amma, eyni zamanda, bildiyiniz kimi, bərpaolunan enerji növlərinin inkişafı üçün Azərbaycanda çox böyük potensial var. Hazırda iki stansiya inşa edilir - 470 meqavatlıq günəş və külək. Üçüncü stansiyanın inşası yaxın vaxtlarda başlayacaq, o da bizə təqribən 240 meqavat əlavə güc verəcək.

Biz bu gün doğrudan da böyük və önəmli işin təməlini qoyuruq. Əminəm ki, stansiya nəzərdə tutulmuş vaxtda inşa ediləcək və həm ölkəmizin enerji potensialını gücləndirəcək, ixrac imkanlarımızı gücləndirəcək və həm də xarici tərəfdaşlarla yeni, gələcək layihələrə yol açacaqdır.

## MİNGƏÇEVİR ELEKTRİK STANSİYASINDA QURAŞDIRILACAQ 4 TURBİN ARTIQ SINAQDAN KEÇİRİLİB

“Biz artıq bir ildir ki, “Ansaldo Green Technologies” adlı şirkət yaratmışıq. Bu yolla gedərək biz nəinki təbii qazın qənaət olunmasına sərmayə yatıracağıq, o cümlədən enerjiyə, təmiz enerjiyə keçid prosesinə bütün gücümüzlə dəstək verəcəyik”.

Bu barədə İtaliyanın “Ansaldo Energia” şirkətinin prezidenti Cuzeppe Marino Mingəçevir şəhərində İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində bildirib.



“Beləliklə, bizim şirkətlərimiz arasında əməkdaşlıq belə imkanlar açacaq. Mingəçevirdə 4 turbin quraşdırılacaq və onlar artıq sınaqdan keçirilib, orada çoxlu iş yeri yaradılacaq. Təbii ki, bizim məhz azərbaycanlı tərəfdaşlarla qurduğumuz əməkdaşlıq ölkənin enerji siyasətinə mühüm töhfə olacaq. Beləliklə, biz bundan sonra da ölkələrimizin enerji təhlükəsizliyinə dayanıqlı şəkildə dəstəyimizi verəcəyik”, - deyə Cuzeppe Marino qeyd edib.

## AZƏRBAYCANIN ƏN BÖYÜK ELEKTRİK STANSİYASININ MODERNLƏŞDİRİLMƏSİNDƏ İŞTİRAKDAN QÜRUR DUYURUQ

“Azərbaycanın çox gözəl və şanlı paytaxtı Bakıya bir daha gəlmək mənim üçün çox xoşdur. İlk növbədə, “Dongfang Electric Corporation” şirkəti - DEC adından istərdim xüsusilə Mingəçevir şəhərində 1280 meqavatlıq elektrik stansiyasının təməlqoyma mərasimi ilə əlaqədar təbriklərimi sizə ifadə edim”.

Bunu Çinin “Dongfang” şirkətinin baş direktoru Çen Xuacye Mingəçevir şəhərində İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində deyib.

“Dongfang Electric Corporation” haqqında məlumat verən Çen Xuacye bildirib ki, Çinin ən qabaqcıl 52 dövlət müəssisəsindən biri olan DEC bu ilin əvvəlinə qədər 90-dan çox ölkədəki qlobal istifadəçilərə ümumilikdə 560 qiqavatdan çox enerji istehsal edən qurğular təqdim edib.



## İTALİYA GƏLƏCƏKDƏ DƏ AZƏRBAYCANIN GENİŞ ENERGETİKA PLANLARI ÜÇÜN ETİBARLI MÜTTƏFİQ OLACAQ



“İtaliya gələn illərdə də Azərbaycanın geniş energetika planları üçün etibarlı müttəfiq olacaq.

Həyata keçiriləcək əməkdaşlığa gəldikdə, əminik ki, biz, həmçinin digər sənaye sahələrində, o cümlədən kənd təsərrüfatı və yeyinti məhsullarının istehsalında sizinlə işləyə biləcəyik. Biz sizin tərəfinizdəyik, istərdik ki, Azərbaycanın inkişafına və Avropanın enerji təhlükəsizliyinə öz töhfəmizi verək”.

Bu barədə İtaliyanın şirkətlər və “Made in Italy” naziri Adolfo Urso Mingəçevir şəhərində İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində bildirib. “İstərdim ki, İtaliya ilə Azərbaycan arasındakı tərəfdaşlıq Avropada nümunəvi olsun və biz də bu gün sizin tələbatlarınıza cavab verməklə istəyirik”, - deyə Adolfo Urso vurğulayıb.

## YENİ İSTİLİK ELEKTRİK STANSİYASI 1 MİLYARD KUBMETRƏ YAXIN QAZA QƏNAƏT OLUNMASINA İMKAN VERƏCƏK

“Bu gün təməli qoyulan yeni stansiya Azərbaycanın müstəqilliyi dövründə tikilən ən böyük elektrik stansiyasıdır. Bu möhtəşəm tədbir münasibətilə bütün xalqımızı təbrik edirəm. Gücü 1280 MVt olan stansiya “Azərbaycan” İstilik Elektrik Stansiyası ilə inteqrasiya edildikdən sonra onun gücü 1880 MVt-a çatdırılacaq”.

Bu barədə “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev Azərbaycanın müstəqillik dövründə ən böyük İstilik Elektrik Stansiyasının fevralın 13-də keçirilən təməlqoyma mərasimində AZƏRTAC-a müsahibəsində deyib. Layihənin bir sıra göstəricilərə görə əhəmiyyətini xüsusi vurğulayan B.Rzayev bildirib ki, Mingəçevir şəhərində müvafiq infrastruktur, o cümlədən ötürücü xətlər, qaz xətləri və s. mövcud olduğuna görə bu layihənin dəyəri ənənəvi layihələrdən 2,5-3 dəfə aşağıdır.

Yeni stansiya il ərzində respublikamızda 800 milyon – 1 milyard kubmetr qaza qənaət olunmasına imkan verəcək. Ümumiyyətlə, indiki bazar qiymətləri ilə baxsaq, layihəyə cəlb olunan investisiyanın ən uzağı 6 ilə geri qayıtması gözlənilir.

## “ƏMƏKDAŞLIĞIMIZ MÜXTƏLİF SAHƏLƏRDƏ UĞURLA İNKİŞAF EDİR”

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edərkən deyib.

Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq, əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev, həmçinin iki ölkənin qanunverici orqanları səviyyəsində qarşılıqlı səfərlərin və əməkdaşlığın əhəmiyyətinə toxunub.



Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verib.

# Türkiyədə zəlzələnin ilk günündən ən çox və tez yardım göndərən Azərbaycan olub



"Türkiyədə zəlzələ baş verən gündən Azərbaycan dövləti və Gürcüstanda yaşayan azərbaycanlılar daim bizim yanımızda olublar. Bu, əsl qardaşlığın, bir millət, iki dövlət olmağımızın sübutudur".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay söyləyib.

Səfir deyib ki, Türkiyədə baş verən müdhiş faciənin ilk günündən ən çox və ən tez yardım göndərən Azərbaycan olub. Gürcüstanda yaşayan azərbaycanlılar da əsl qardaşlıq nümayiş etdirirlər. Bu, başqa ölkələr üçün də nümunədir.

"Mən bu dəstəyə, köməyə görə qardaş Azərbaycan xalqına, şəxsən Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, eləcə də Gürcüstanda yaşayan azərbaycanlılara minnətdarlığımı bildirirəm", – deyə Ali Kaan Orbay vurğulayıb.

Onun sözlərinə görə, Gürcüstanda yaşayan azərbaycanlılar, eləcə də gürcü dostlar bu günə qədər Türkiyədə zəlzələdən zərər çəkən insanlar üçün xeyli humanitar yardım toplayıblar. Bu da, eyni zamanda Azərbaycan-Türkiyə-Gürcüstan dostluğunun, qardaşlığının bariz nümunəsidir.

# Türkiyənin ölkəmizdəki səfiri azərbaycanlılara təşəkkür edib




"Azərbaycanın ürəyi Türkiyə ilə döyünür. Kimin gücü nəyə çatırsa, kömək etməyə, dəstək olmağa çalışır".

Bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı fevralın 14-də keçirilən brifinqdə deyib.

O diqqətə çatdırıb ki, zəlzələ ilə bağlı Azərbaycanın dövlət rəsmiləri də öz dəstəklərini ifadə ediblər.

Hər bir azərbaycanlıya təşəkkürünü bildirən Cahit Bağçı qeyd edib ki, ötən ağır həftə Azərbaycan Türkiyənin yanında oldu, lazımi dəstəyini göstərdi və göstərməkdə davam edir.

# Zəlzələ nəticəsində həlak olanların sayı 35 418-ə çatıb



Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həlak olanların sayı 35 418-ə çatıb.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məlumat verib.

Onun sözlərinə görə, yaralı olaraq dağıntıların altından 105 505 nəfər xilas edilib. Onlardan 92 000-ə yaxını müalicə olunaraq, evə buraxılıb. Yaralıların 13 208-i xəstəxanalarda müalicəsini davam etdirir. Zəlzələ nəticəsində dağılan binaların sayı isə 19 000-ə bərabər olub.

**Xilasetmə işlərinə təxminən 250 000 nəfər, 12 235 müxtəlif texnika cəlb olunub. 14 fevral 2023. 21:10**

# Könüllülərimiz Türkiyədə fəaliyyətini davam etdirir



Baş vermiş dəhşətli təbii fəlakətdən zərər çəkən qardaş türk xalqına kömək məqsədilə Kahramanmaraşa yollanan Azərbaycan könüllüləri ötən gün fəal şəkildə çalışıblar.

Gənclər Fondunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Kahramanmaraş şəhərinin mərkəzində Azərbaycan könüllüləri çadır qərargah məntəqəsinin salınmasını başa çatdırıb və paylama (təminat) mərkəzini qurublar. Bundan əlavə, Azərbaycan könüllü gəncləri şəhərin müxtəlif ərazilərində yerləşən yemək paylama mərkəzlərində yeməklərin çeşidləmə, paketləmə və paylama prosesində fəal iştirak ediblər. Həmçinin könüllülərimizin bir qrupu yerli əhalinin mobil telefonları üçün enerji təminatına imkan yaradan enerji yükləmə mərkəzində xidməti həyata keçiriblər. Eləcə də, tibb təhsilli könüllülərimiz Türkiyə Gənclər Fondunun (TÜGVA) səyyar aptekində xidmət göstərib, habelə, TÜGVA-nın yaxınlıqdakı zərərçəkmiş kəndlərə göndərilən səyyar qruplarının tərkibində səfər edib, müvafiq yardımların paylanmasında fəal şəkildə iştirak ediblər.

Qeyd edək ki, könüllü nümayəndə heyətimiz Türkiyə Respublikası Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) 10 min nəfər zərərçəkmiş şəxsin yerləşdirildiyi çadır düşərgəsində də olublar.

# Regional nəqliyyat tədbiri keçirilib




Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Beynəlxalq Nəqliyyat Forumu (BNF) ilə birgə həyata keçirilmiş "Azərbaycanda 2019-2022-ci illər ərzində nəqliyyatın dekarbonizasiyası" layihəsinin yekunu olaraq Azərbaycanda Nəqliyyatın Dekarbonizasiyası Regional Dialoq Tədbiri keçirilib.

Nazirlikdən bildiriblər ki, regional tədbir Almaniyanın İqtisadiyyat və İqlim Dəyişikliyi üzrə Federal Nazirliyi tərəfindən maliyyələşdirilən "İnkişaf etməkdə olan Ölkələrdə Nəqliyyatın Dekarbonizasiyası" layihəsinin bir hissəsini təşkil edir. Tədbirdə Özbəkistan, Monqolustan, Hindistan və Argentinanın müvafiq qurumlarının, eləcə də BMT-nin İnkişaf Proqramı və Asiya İnkişaf Bankının mütəxəssisləri iştirak ediblər. Qeyd edək ki, bu layihənin məqsədi nəqliyyatda $CO_2$ emissiyalarını azaltmaq üçün nəqliyyat emissiyalarına dair ümumi qiymətləndirmə çərçivəsinin hazırlanması və ölkələrin iqlim məqsədlərinə çatması üçün onlara dəstək verilməsidir.

# "AzerGold" QSC "Tülallar" qızıl yatağında hasilat işlərinə başlayıb



"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Göygöl rayonunun inzibati ərazisində yerləşən "Tülallar" qızıl yatağında hasilat işlərinə başlayıb.

QSC-dən verilən məlumata görə qızıl yatağında süxurların ilk dəfə partladılması prosesi Səhmdar Cəmiyyət üçün ən əlamətdar təqvimlərdən birində - bu il fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Səhmdar Cəmiyyətin təsis olunmasının 8-ci ildönümündə baş tutub.

Qeyd edək ki, "Tülallar" qızıl yatağı SSRİ dövründə kəşf olunmuş, lakin geniş tədqiq edilməmişdir. QSC-nin geoloqları 2017-ci ildə yatağı geniş tədqiq etmiş, 2022-ci ildə beynəlxalq nüfuzlu məsləhətçi "Micon International Co Limited" şirkəti tərəfindən ilkin mərhələdə yerin təkində 298 min qızıl unsiya, çıxarıla bilən həcm olaraq isə 85 min qızıl unsiya ehtiyatı hesablanıb təsdiqlənmiş və dövlət balansına alınmışdır. Hazırda istismar müddəti 3 il nəzərdə tutulan qızıl yatağında hasilat işləri ilə paralel ehtiyatların artırılaraq, istismar müddətinin uzadılması üçün mədənin yaxın və uzaq cinahlarında, Göygöl-Daşkəsən inzibati rayonlarının ərazisinə təsadüf edən sahələrdə intensiv geoloji axtarış-qiymətləndirmə, ilkin geoloji-kəşfiyyat işləri davam etdirilir və artıq bir sıra minerallaşma zonaları aşkar edilib. Perspektivli minerallaşma sahələrinin 2023-cü il ərzində maqnit və elektrik geofiziki tədqiqat üsulları ilə öyrənilməsi həyata keçiriləcək. Bununla "Tülallar" yatağının çıxarılabilən ehtiyatlarının və istismar müddətinin ən azı 3 ildən 4 il 2 aya qədər artırılması gözlənilir.

# "Mətanət A" şirkəti Misirdə zavod tikəcək



Şirkətdən daxil olan məlumatda qeyd edilib ki, yanvarın 27-də Bakıda Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycanın iş adamları ilə görüşü keçirilib.

Görüşdə Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və Misir Prezidenti Əbdülfəttah Əs-Sisi çıxış ediblər.

İqtisadiyyat naziri M.Cabbarov çıxışında hazırkı tədbirin ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcəyinə əminliyini bildirib. Azərbaycan ilə Misir arasında siyasi-iqtisadi əlaqələrin qarşılıqlı hörmət, dostluq və faydalı əməkdaşlıq əsasında inkişaf etdiyini vurğulayan M. Cabbarov dövlət başçılarının siyasi iradəsinin ikitərəfli əlaqələrin möhkəmlənməsində və genişlənməsində mühüm rol oynadığını bildirib.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Prezident Əbdülfəttah Əs-Sisi Misi-rin sadiq dostu, bu il 100 illik yubileyi qeyd ediləcək Ümummilli Lider Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük uğurlara nail olduğunu qeyd edib.

Görüşdə iştirak edən "Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisiyə Misirdə inşaat materialları zavodunun tikilməsini təklif edib.




**Azəri Light və Brent marakalı neftin bir barelinin 8-15 fevral tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

***Tərtib etdi:*** *İqtisadçı ekspert Maqsud Quliyev*

# “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru” mövzusunda konfrans keçirilib

*Fevralın 10-da İqtisadiyyat Nazirliyinin inzibati binasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru” mövzusunda konfrans keçirilib. Tədbirə İqtisadiyyat Nazirliyinin və nazirlik yanında Dövlət Vergi Xidmətinin rəhbərliyi, millət vəkilləri, dövlət qurumlarının, ali təhsil müəssisələrinin, sahibkarların ictimai birliklərinin nümayəndələri, iş adamları və media təmsilçiləri qatılıblar. Konfransın açılış mərasimində ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Ulu Öndər haqqında film nümayiş etdirilib. Tədbir iştirakçılarını salamlayan Dövlət Vergi Xidmətinin (DVX) rəisi Orxan Nəzərlinin təklifi ilə Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.*






* * * * *

**“Ötən il dövlət büdcəsinin gəlirlərinin 50 faizi qeyri-neft-qaz sektoru hesabına formalaşıb”**



“2022-ci ildə neft və qaz qiymətlərinin müsbət dinamikasının çox yüksək səviyyəsinə baxmayaraq, dövlət büdcəsinin gəlirlərinin 50 faizi qeyri-neft-qaz sektoru hesabına formalaşıb”.

Bunu ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş **“Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru”** mövzusunda təşkil olunmuş konfransda çıxış edən İqtisadiyyat naziri **Mikayıl Cabbarov** deyib.

Qeyri-neft ixracının artım trayektoriyasının davam etdirilməsinə toxunan nazir bildirib ki, bu istiqamətdə hələ də istənilən rəqəmlərə nail olunmayıb. “3 milyard dollar rəqəmini keçmişik, lakin bu bizim ümumi ixracımızla müqayisədə böyük bir rəqəm deyil. Eyni zamanda, dinamikaya baxdıqda, biz 3 il öncə 1,7 milyard dollardan danışırdıq, indi isə 3 milyarda çatmışıq. Hədəfimiz, təbii olaraq, bunu yüksək templə davam etdirməkdir”, - deyə nazir vurğulayıb.

Mikayıl Cabbarov həmçinin, Azərbaycanda iqtisadi artımın təmin edilməsi prosesində vergi sisteminin tənzimləyici funksiyalarının da mühüm rolundan danışıb. Onun sözlərinə görə, qarşıdakı dövrdə vergi siyasətinin qarşısında duran əsas hədəflər ilk növbədə iqtisadi təşviqdir: **“Biz bunu işğaldan azad edilmiş ərazilərin nümunəsində görürük. Bildiyiniz kimi, bu ilin əvvəlindən, cənab Prezidentin tapşırıq və təşəbbüsünə əsasən, vergi, sosial müdafiə, gömrük qanunvericiliyi sahəsində çox geniş təşviqlər qəbul edilib”.**

**“Vergi siyasətində daha bir mühüm istiqamət rəqəmsallaşmanın genişləndirilməsi ilə yanaşı, yeni üfüqlərin müəyyənləşdirilməsidir. Burada xüsusi olaraq son aylar ərzində Dövlət Vergi Xidməti ilə Dövlət Gömrük Komitəsi arasında əməkdaşlığın sinxronlaşdırılmasını təşəkkür və minnətdarlıq hissi ilə qeyd etmək istərdim”**,- deyən nazir əlavə edib ki, bu, faktiki olaraq vergi ödəyiciləri üçün eyni yanaşmaların tətbiqinin təmin edilməsidir. Bu, bir tərəfdən, sahibkarlar üçün daha çox sabitliyi təmin edir, digər tərəfdən isə hər iki qurumun fəaliyyətinin səmərəliliyini artırır: **“Ona görə biz 2023-cü il ərzində buna xüsusi diqqət verməkdə davam edəcəyik”.**

* * * * *

**“Müasir vergi sisteminin fundamental əsasları ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə yaradılıb”**



Bunu İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi **Orxan Nəzərli** “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru” mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib. Onun sözlərinə görə, 2023-cü ildə ümummilli lider, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Müasir Azərbaycanın dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir zaman kəsiyi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın əldə etdiyi nailiyyətlər, sıçrayışlı inkişaf, yüksək sosial tərəqqisi məhz onun təşəbbüsü ilə hazırlanan və həyata keçirilən iqtisadi inkişaf doktrinasının reallaşdırılması sayəsində mümkün olub.

O.Nəzərli əlavə edib ki, ümummilli liderin nəticəyə hesablanmış siyasəti sayəsində Azərbaycanın milli inkişaf strategiyasının ən mühüm parametrlərindən biri - güclü milli iqtisadiyyatın qurulması istiqamətində ciddi uğurlar əldə edilib.

O, həmçinin, qeyd edib ki, iqtisadiyyatın bərpası və sürətlənən artım fiskal gəlirlərə əhəmiyyətli təsir etsə də, vergi daxilolmalarında artımda, şübhəsiz, vergi qanunvericiliyindəki dəyişikliklər və təbii ki, vergi inzibatçılığı da müəyyən rol oynayıb.

Onun sözlərinə görə, 2022-ci ildə ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması təmin edilib ki, bu da proqnozlara nisbətdə 32,4 faiz, 2021-ci illə müqayisədə 82,2 faiz çoxdur. 2021-ci ilə nisbətdə 7 milyard manatdan çox vəsaitin artıq təmin edilməsi ölkəmizin maliyyə imkanlarının genişlənməsinə əhəmiyyətli həcmdə dəstək olub, büdcənin cari xərclərinin örtülməsində vergi və gömrük daxilolmalarının artan payı Dövlət Neft Fondundan büdcəyə transfertlərin azaldılmasına imkan verib.

O.Nəzərli qeyri-neft-qaz sektorundan daxilolmaların 2021-ci ilə nisbətən 1,8 milyard manat çox olmasını xüsusilə əhəmiyyətli hal kimi qeyd edib.

Vergi xidmətinin bu gün ölkənin büdcə gəlirlərinin formalaşması, iqtisadi inkişafın təmin edilməsi, sahibkarlığın dəstəklənməsi prosesində fəal iştirakçı olduğunu söyləyən Xidmət rəisi əlavə edib ki, ötən il dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergi ödəyicilərinə xidmətlər çeşidinin və biznesin fəaliyyətinə effektiv vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi vergi orqanlarının fəaliyyətinin başlıca prioritetlərini təşkil edib. İqtisadi artımın bərpasında vergi təşviq alətlərindən fəal istifadə edilib. Bütövlükdə, dünya enerji bazarlarındakı əlverişli qiymət konyukturu, eyni zamanda qeyri-neft sektorunda müşahidə olunan müsbət dinamika, biznesin fəaliyyətində şəffaflaşma prosesinin davam etməsi şəraitində Dövlət Vergi Xidmətinin üzərinə düşən fiskal öhdəliklərin icrası təmin edilib. 2022-ci ildə ümumilikdə Dövlət Vergi Xidmətinin üzərinə düşən fiskal yığımların həcmi 21 mlrd. 110,2 mln. manat təşkil edib ki, bu da ölkə üzrə bütün fiskal yığımların 78,9 faizini təşkil edir.

* * * * *

**“Aparılan islahatlar nəticəsində iqtisadiyyat dinamik inkişaf edir”**



“Dünyada baş verən proseslər Azərbaycana da mənfi təsir göstərə bilərdi, ancaq qabaqlayıcı tədbirlər görərək bunun qarşısını ala bildik”.

Bu fikirləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, **akademik Ziyad Səmədzadə** “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru” mövzusunda keçirilən konfransda səsləndirmiş, qeyd etmişdir ki, 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çıxış edərkən demişdir:

**“...İqtisadiyyat, demək olar, tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır. Yoxsulluq, işsizlik səviyyəsi dəfələrlə artmışdır. Biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik. Bu yol çətin, ağır yoldur. On illər boyu yaranmış iqtisadi-sosial sistemdən sərbəst iqtisadiyyat sisteminə keçmək böyük çətinliklərlə bağlıdır. Bu sahədə son illərdə buraxılan səhvlər vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq biz bu yolla getməliyik, başqa yol yoxdur. Bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir. Bu yola keçərkən əlimizdə olan iqtisadi potensialdan səmərəli istifadə etməliyik, onun bundan sonra dağılmasına yol verməməliyik. Çalışmalıyıq ki, bu potensial bütün Azərbaycan xalqının sərvəti kimi bundan sonra da respublikamızın bütün vətəndaşlarının, bütün təbəqələrin həyat tərzinin yaxşılaşması üçün şərait yaratsın”.**

Z.Səmədzadə Heydər Əliyevin 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması mərasimindəki çıxışından da bəzi məqamları da diqqətə çatdırdı: **“Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başladığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir. Bu müddətdə eyni zamanda 400 milyard kubmetrədək qaz çıxarılmışdır. Bütün bunlar böyük nailiyyətlərdir və gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının, neft sənayesinin inkişafı üçün böyük əsas və təməldir.**

**Biz ötən dövrlərdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çarpdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi”.**

Daha sonra respublika rəhbəri bildirmişdi ki, “1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Bu mərhələnin isə əsas fərqləndirici xüsusiyyəti odur ki, Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir.

Heydər Əliyev Neft yataqlarımızın müştərək işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında aparılan danışıqların mahiyyəti, meydana çıxan çətinliklər, onların həlli ilə bağlı əldə olan razılaşmalara diqqət cəlb edərək demişdi: **“Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk”.**

Müstəqilliyin ilk illərində inflyasiyanın acı təsirini hər birimiz demək olar ki, hər gün öz üzərimizdə hiss edirdik. Maddi ərzaq ehtiyatları süni yolla ticarətin xeyrinə paylanır, istehsalın genişləndirilməsinə maraq azalır, asan pul qazanmaq meyli hər yerdə adi hal alırdı. 1994-cü ilin yanvarında dollar 285 manata, apreldə 500, iyunda 1100, avqustda 1280, sentyabrın ortalarında 1700, oktyabrın 10-da isə 2000, indi dekabr ayında 4500 manata bərabər olmuşdu. Manatın məzənnəsinin bu qədər kəskin aşağı düşməsi pul-kredit siyasətinin iflic olmasından xəbər verirdi.

Vəziyyət həqiqətən çox ağır idi. İflic vəziyyətinə düşmüş iqtisadiyyatı bərpa etmək üçün maliyyə-vergi, bank sistemində ciddi islahatlar aparılmalı, düşünülmüş büdcə siyasəti yeridilməli, dörd rəqəmli inflyasiyanı cilovlamaq tələb edilirdi.

Bu məsələ ilə bağlı Heydər Əliyev narahatlıqla qeyd edirdi: **“Respublikamızın iqtisadiyyatında vəziyyət o dərəcədə ağır idi ki, işləyənlərə vaxtında maaş vermək də ciddi problemə çevrilmişdi. Amma bu problemin həllində də artıq müsbət meyillər özünü göstərir. Siz Moskva televiziyasına baxırsınız, görürsünüz ki, maaşların 3 ay, 4 ay, 5 ay verilməməsi, pulun oradan götürülüb buraya, buradan götürülüb oraya göndərilməsi haqqında hər gün danışırlar. Mən demək istəmirəm ki, bizdə hər şey yaxşıdır. Mən daim maraqlanıram bizim maaşlarla, pensiyalarla əlaqədar borclar bir aylıqdır. Yaxşı olardı ki, hər ayınkı vaxtında verilsin. Buna da çalışmaq lazımdır. Rusiya televiziyasına baxırıq. Başqalarına baxsaq, bəlkə oradakı vəziyyəti də bilərik. Rusiya televiziyasından aldığımız məlumata baxanda bizim bu sahədə işlərimizi müsbət qiymətləndirmək lazımdır”.**

Azərbaycan hökuməti Maliyyə Nazirliyi, Milli Bank, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq etməli, milli maraqları nəzərə almaqla azad bazar münasibətlərini formalaşdırmalı idi. Maliyyə, vergi, bank strukturunda aparılan islahatların əlaqələndirilməsi qanunvericiliyin, ölkədə əlverişli investisiya mühitinin yaradılmasına öz müsbət təsirini göstərdi.

Bu barədə Heydər Əliyevin 1998-ci ildə dediyi fikirləri səsləndirməyi vacib hesab edirəm: **“Azərbaycanda iqtisadiyyat, maliyyə, bank sahəsində görülən işlər, aparılan islahatlar, əvvəla, ardıcıl xarakter daşıyır, mütəmadi xarakter daşıyır və dünya təcrübəsinə əsaslanır, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin maliyyə sistemlərinin, banklarının təcrübəsinə əsaslanır. Bu gün mən bəyan edirəm ki, Azərbaycan bu yolla bundan sonra da gedəcək, Azərbaycanda maliyyə-bank sistemi ilbəil inkişaf edəcək və bunların hamısı Azərbaycanın iqtisadiyyatı ilə ahəngdar sürətlə inkişaf edəcəkdir. Bunu deməyə mənim əsasım var. Çünki son illərdə aparılan islahatlar – iqtisadi islahatlar, bank-maliyyə sistemində aparılan islahatlar artıq öz nəticələrini verir və Azərbaycanda həm iqtisadiyyatın inkişafını, həm**

**sabit valyuta bazarını təmin edir, həm də insanların rifah halını yaxşılaşdırır”.**
Görülmüş sistemli tədbirlər nəticəsində ölkə iqtisadiyyatının dinamikasında müsbət meyillər güclənirdi. Bununla əlaqədar Ulu Öndər Heydər Əliyevin ötən əsrin sonlarında dediyi bir fikri qeyd etmək istərdim: **“Bilirsiniz, sadə Azərbaycan vətəndaşı buna çox açıq sözlə, obyektiv baxmalıdır. Sadə Azərbaycan vətəndaşı tədricən fayda götürür. Belə təsəvvür etmək olmaz ki, elə bir gün yetişəcək ki, sadə Azərbaycan vətəndaşına göydən, yaxud kimdənsə içərisində, nə bilim, nə qədərsə pul, yağ və digər şeylər olan bağlama gələcəkdir. Bilirsiniz, indi biz nə ediriksə, hər ay sadə Azərbaycan vətəndaşına praktiki olaraq xeyir gətirir. Bu, reallıqdır. Siz ətrafa nəzər salın, görün, beş il, üç il əvvəl necə idi, indi Azərbaycanda vəziyyət necədir?**
**Manat sabitdir. 1994-cü ildə inflyasiya 1600 faiz idi, indi isə inflyasiya yoxdur. Rusiyada baş verənlər bizi çox narahat edir – bu, Azərbaycana da mənfi təsir göstərə bilərdi. Biz tədbirlər gördük, bunun qarşısını aldıq, yol vermədik. Bax, bu, Azərbaycan vətəndaşının götürdüyü konkret, praktiki faydadır.**
**İslahatlar keçirilir, iqtisadiyyat inkişaf edir. Ötən illərdə sənayecə kənd təsərrüfatı istehsalı hər il 10, 15, 20, 25 faiz aşağı düşürdü. İndi isə təkcə son səkkiz ayda sənayedə artım 0,9 faiz olmuşdur. Bu, az olsa da, hər halda artımdır, azalma deyildir. Bizim konkret planlarımız, proqramlarımız var. Neft və qaz yataqlarının işlənilməsinə dair proqramı ardıcıl olaraq həyata keçirərək iqtisadiyyatın və xalqın rifah halının yüksəlişini təmin edəcəyik”.**
Mən öz çıxışımı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildə andiçmə mərasimində dediyi aşağıdakı sözlərlə bitirmək istəyirəm:
**“Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.**
**Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.**
Və bu sözlər həyatda öz təsdiqini tapdı.
Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciət edən zaman Prezident dedi: **“Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”...**
Cənab İlham Əliyev təkcə Prezident kimi deyil, həm də bir oğul kimi də öz üzərinə böyük məsuliyyət götürmüşdü. Və o, həm ata vəsiyyətini, həm də Prezident andını yerinə yetirdi. Tam əminliklə demək olar ki, aylar, illər keçəcək, Heydər Əliyevin Azərbaycan xalqının gələcəyi haqqında əbədiyaşar ideyaları müstəqil dövlətimizin işıqlı gələcəyini təmin edəcək.

* * * * *

**“Vergi yığımlarının artmasının səbəblərindən biri də vətəndaşın dövlətə olan inamıdır”**



**“Vergi yığımlarının artmasının səbəblərindən biri də vətəndaşın dövlətə olan inamıdır. Bu inamın əsasında isə Prezident İlham Əliyevin apardığı siyasət dayanır”.**
Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili **“Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru”** mövzusunda keçirilən konfransda deyib. **T.Mirkişili** qeyd edib ki, bu gün dövlət büdcəsinin gəlirlərinin 44 faizindən çoxunu vergi daxilolmaları təşkil edir: **“Bununla yanaşı, Dövlət Vergi Xidmətinin qarşısında çox ciddi vəzifələr dayanır”.**
Komitə sədri bildirib ki, hazırda iqtisadiyyatın rəqəmsallaşdırılması vergi bazasının müəyyən edilməsi yolunda müsbət nəticələrə səbəb olub: **“Bu gün Azərbaycanda azadolmalar yığılan vergi məbləğinin təxminən 50 faizi həcmindədir. Amma dünyada iqtisadçılar arasında belə bir fikir var ki, azadolmalardansa ünvanlı yardımların artırılması daha effektli olur. Bu istiqamətdə də araşdırmalar aparılır”.** T.Mirkişilinin sözlərinə görə, Dövlət Vergi Xidmətinin tətbiq etdiyi alətlərin böyük əksəriyyəti Vergi Məcəlləsinin təkmilləşdirilməsini zəruri edir: **“2000-ci ildə qəbul edilən Məcəllə o zaman vergi orqanının fəaliyyətindən daha irəlidə idi. Amma bu gün İqtisadiyyat Nazirliyi və Dövlət Vergi Xidmətinin həyata keçirdiyi alətlər artıq Məcəllənin təkmilləşməsinə ehtiyac yaradır”.**

* * * * *

**“Şəffaflaşdırma işləri, yoxlamaların sayının minimuma endirilməsi sahibkarlıq mühitini yaxşılaşdırıb”**



“Bugünki müasir vergi sistemini məhz ümummilli lider Heydər Əliyev yaradıb. Onun apardığı siyasətin nəticəsi olaraq, Azərbaycanda vergi qanunvericliyi yaradıldı və vergi inzibatçılığı formalaşdırıldı”.
Bunu iqtisadiyyat nazirinin müavini **Sahib Ələkbərov “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru”** mövzusunda keçirilən konfransda deyib.
S.Ələkbərov bildirib ki, aparılan şəffaflaşdırma işləri, yoxlamaların sayının minimuma endirilməsi və digər tədbirlər ölkədə sahibkarlıq mühitini ildən-ilə yaxşılaşdırdı və vergi daxilolmaları artmağa başladı: **“1990-cı illərin əvvəllərində vergi daxilolmaları sahəsində vəziyyət yaxşı deyildi, vergidən yayınma kütləvi hal almışdı. Daha sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında aparılan siyasət nəticəsində vergi daxilolmaları getdikcə artmağa başladı və 2004-cü ildə 1 milyard manatlıq baryeri keçdi. 2022-ci ildə isə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması təmin edilib. Lakin arxayınlaşmaq olmaz. İqtisadiyyatımızda aparılan islahatları, eləcə də mövcud potensialı nəzərə alaraq, çox işlər görməliyik”.**

**“Rəqəmsallaşma iqtisadi artıma böyük töhfə verir”**



**“Rəqəmsallaşma ölkənin böyük və kiçik olması fərqini aradan qaldırır, iqtisadi artıma əhəmiyyətli töhfə verir”.**
Bunu UNEC rektoru, İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın sədri Ədalət Muradov **“Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru”** mövzusunda keçirilən konfransda deyib. Müasir texnologiyaların tətbiqinin, rəqəmsallaşma və süni intellektin indiki dövrdə norma olduğunu xatırladan rektorun sözlərinə görə, rəqəmsallaşma başqa bir problem yaradır: **“Problemin həlli rəqəmsallaşma yolunu tutan dünya iqtisadiyyatı qarşısında ən ciddi çağırışlardan biridir. Bu çağırışlardan biri iqtisadiyyatda dəyərlərdir. Rəqəmsallaşma dəyər anlayışını qəbul etmir. Amma iqtisadiyyatda dəyər olmadan qarşıya qoyulan hədəflərə nail olmaq mümkün deyil”.**

* * * * *

**“Vergi azadolmaları xarici investisiyaların cəlbinə yardım edəcək”**



**“Azad edilmiş ərazilərimizin bərpasına yönələn vergi azadolmaları, güzəştlər həmin ərazilərdə biznes mühitinin gücləndirilməsinə və inkişafına, ümumiyyətlə, Azərbaycanın regiondakı biznes rəqabət qabiliyyətinə təkan verəcək və xarici investisiyaların cəlbinə yardım edəcək”.**
Bunu AMCHAM-ın prezidenti **Nərgiz Nəsrullayeva-Müdüroğlu** “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru” mövzusunda keçirilən konfransda deyib.
Onun sözlərinə görə, Dövlət Vergi Xidməti tərəfindən həyata keçirilən islahatlar, layihələr rəğbətlə qarşılanır: **“Son dövrlərdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər nəticəsində vergi güzəştləri və azadolmaların sayı artıb. Belə mütərəqqi islahatlardan biri də azad edilmiş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün tətbiq ediləcək güzəştlərdir. AMCHAM olaraq, Azərbaycana birbaşa xarici investisiyaların cəlbi üçün bir sıra tədbirlər həyata keçiririk”.**
N.Nəsrullayeva-Müdüroğlu əlavə edib ki, vergi sistemində əhəmiyyətli kadr islahatları aparılıb, effektiv elektronlaşdırma sayəsində vətəndaş-məmur təması minimuma endirilib, nağdsız ödənişlərin sayı artıb.

* * * * *

**“Azad edilmiş ərazilərdə sürətli bərpanı təmin edəcək bütün zəruri addımlar atılır”**



**“İşğaldan azad edilmiş ərazilərdə istehsal təyinatı məqsədilə idxal olunacaq xammal və materialların, eləcə də texnika və texnoloji qurğuların siyahısı hazırda aidiyyatı dövlət qurumları ilə razılaşdırılır".** Bunu İqtisadiyyat Nazirliyinin şöbə müdiri **Zamin Bədirxanov “Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru”** mövzusunda keçirilən konfransda deyib.
Onun sözlərinə görə, İqtisadiyyat Nazirliyinin əsas vəzifələrindən biri işğaldan azad edilmiş ərazilərdə əlverişli biznes mühitinin yaradılmasıdır. Vergi və gömrük güzəştərinin tətbiqi, dövlət sosial sığorta ödənişləri ilə bağlı subsidiyalaşdırma, sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, kommunal xidmətlərin güzəştli şərtlərlə ödənilməsi, işğaldan azad olunmuz ərazilərə mütəxəssislərin cəlb edilməsi ilə bağlı əmək kvotasının yaradılması və iş icazəsinin verilməsi ilə bağlı artq bir sıra tədbirlər görülür.

# “PAŞA Həyat” 2022-ci ilin maliyyə göstəricilərini açıqladı

Ölkənin lider həyat sığortası şirkəti olan “PAŞA Həyat Sığorta” ASC 2022-ci ilin beynəlxalq standartlara uyğun hazırlanmış maliyyə hesabatlarını ictimaiyyətə açıqlayıb.
Şirkətin yaydığı press-relizdə bildirilir ki, 2022-ci ildə PAŞA Həyat yığımlarına görə sığorta bazarı iştirakçıları arasında birinci yerdə qərarlaşıb. Şirkət ölkənin sığorta bazarında bütün məhsulları üzrə 407 milyon manat sığorta yığımları əldə edərək, bazarda yeni rekord nəticəyə imza atmaqla öz rekordunu yeniləyib.
Eyni zamanda, şirkət müştərilərinə 221 milyon AZN sığorta ödənişi həyata keçirib. Bu da öz növbəsində 2021-ci il üzrə illik göstəricidən 17% daha çoxdur.
Məlumatda qeyd edilib ki, audit olunmamış ilkin göstəricilərə əsasən, PAŞA Həyat 2022-ci ili 24 milyon manat cəmi məcmu gəlirlə başa vurub. Şirkətin məcmu kapitalı 70 milyon AZN, məcmu öhdəlikləri isə 492 milyon AZN təşkil edib.
Dayanıqlı şirkətlərdən olan PAŞA Həyat-ın məcmu aktivləri 2022-ci ilin 31 dekabr tarixinə 562 milyon manat təşkil edib.
"Daim müştərilərə ən yaxşı xidmət və rəqəmsal həllər təqdim etmək üzərində çalışan PAŞA Həyat 2021-ci ildən etibarən yeni Rəqəmsal Transformasiya strategiyanı tətbiq edir. Şirkət ötən il ərzində yeni proseslər icra edərək yeni məhsulların yaradılması, Data Analitika, Agile idarəetmə, digər biznes proseslərin optimizasiyası istiqamətində bir çox layihələr həyata keçirib. İşçilərinə xüsusi diqqət ayıran şirkət peşəkar korporativ mədəniyyətin qorunmasını və daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə beynəlxalq konsaltinq şirkəti olan “Willis Towers Watson”un dəstəyilə “Employee Engagement” sorğusu keçirmişdir",- press-relizdə bildirilir.
Əlavə edilib ki, rəqəmsallaşma istiqamətində görülən işlərin nəticəsi olaraq 2022-ci ildə PAŞA Həyat "NETTY 2022" Azərbaycanın Milli internet mükafatının 17-ci mükafatlandırma mərasimində "Maliyyə və Banklar" kategoriyası üzrə "İlin ən yaxşı Vebsaytı" nominasiyası üzrə qalib olub. Həmçinin innovativ və müştəri təcrübəsinə əsaslanan mobil tətbiqin hazırlanması sürətlə davam edir və 2023-cü ilin əvvəlində ilkin versiyanın müştərilərə təqdim edilməsi planlaşdırılır.
"Mövcud dövrdə seçim əlbəttə ki, etibarlı və dayanıqlı həyat sığorta şirkətindən yana olmalıdır. İstənilən durumda sizin vəsaitiniz əminliklə qorunmalı və sizə gəlir gətirməlidir. Bunun üçün PAŞA Həyat ən doğru seçimdir",- məlumatda qeyd edilib.
Lider sığorta şirkəti - “PAŞA Həyat Sığorta” ASC 2010-ci ilin noyabr ayından fəaliyyət göstərir. 31 dekabr 2022-ci il tarixinə şirkətin məcmu aktivləri 562 mln. AZN təşkil etmişdir. Şirkət müştərilərə müxtəlif həyat sığortası məhsulları, o cümlədən “İstehsalatda bədbəxt hadisələrin icbari sığortası”, yığım tərkibli “Həyatın yaşam sığortası” məhsullarını təklif edir.

# SOCAR İsveçrədə ilk hidrogen yanacaqdoldurma məntəqəsinin inşasına başlayıb



Azərbaycan Dövlət Neft Şirkətinin İsveçrədəki törəməsi olan “SOCAR Energy Switzerland” şirkəti avtomobil yolunun üzərində Bern şəhərinin yaxınlığındakı “Grauholz Süd” yanacaqdoldurma məntəqəsində ilk hidrogen yanacaqdoldurma məntəqəsini inşa edir. Bu barədə “SOCAR Energy Switzerland” şirkəti məlumat yayıb.
Məlumata görə, bununla da SOCAR dayanıqlı mobilliyin təmin edilməsi üçün ümumölkə hidrogen yanacaqdoldurma stansiyaları şəbəkəsinə mühüm töhfə verir. Tikinti işlərinə artıq başlanılıb. Hidrogen yanacaqdoldurma məntəqəsinin may ayının sonunadək istismara hazır olacağı gözlənilir.
“SOCAR Energy Switzerland” şirkətinin baş direktoru Edqar Baxmannın sözlərinə görə, SOCAR-ın “Grauholz Süd” hidrogen yanacaqdoldurma məntəqəsi İsveçrə avtomobil yolunda ilk və SOCAR tərəfindən idarə olunacaq ilk belə yanacaqdoldurma məntəqəsi olacaq: “Gələcəkdə “Grauholz Süd” hidrogen yanacaqdoldurma məntəqəsi İsveçrə yol nəqliyyatının hidrogenlə tədarükü üçün təməl daşı təşkil edəcək.
O bildirib ki, hidrogen texnologiyası yol hərəkətində karbon ($CO_2$) emissiyalarını davamlı şəkildə azaltmaq üçün ideal şərait təklif edir: “İsveçrədə ilk SOCAR hidrogen yanacaqdoldurma stansiyasının tətbiqi ilə biz davamlı mobilliyə mühüm töhfə veririk və bununla da enerji keçidinə töhfə veririk”.
Bern şəhərindən Sürixə gedən avtomobil yolunda yerləşən “Grauholz Süd” yanacaqdoldurma məntəqəsinin may ayının sonundan etibarən müvafiq olaraq 700 bar və 350 bar olan avtomobillər və yük maşınları üçün bir hidrogen stansiyasının işləyəcəyi gözlənilir. Gündəlik çatdırılma miqdarı isə 600 kiloqrama qədər hidrogen olacaq.
Bu YDM-də SOCAR yalnız “yaşıl hidrogen” satacaq. Artıq bu YDM-in yenidən təchiz edilməsi işlərinə başlanılıb. Hidrogen YDM-inin açılış mərasimi iyun ayına planlaşdırılır.

# Будет подготовлена карта сейсмического Азербайджана



Принято решение о подготовке карты сейсмического районирования территории Азербайджана, решение об этом было принято на очередном заседании Президиума НАНА.
Отмечено, что в целях дальнейшего расширения и повышения качества комплексных сейсмолого-геофизико-геодинамических исследований Президиумом приняты решения о подготовке карты сейсмического районирования территории республики, обновлении материально-технической базы и программного обеспечения центра и др.

# Азербайджан и Израиль обсудили ситуацию в регионе

Глава представительства Азербайджана при НАТО Джафар Гусейнзаде встретился с представителем Израиля в Европейском союзе (ЕС) и НАТО Хаимом Регевым.
Об этом Гусейнзаде сообщил в Twitter.
«Было очень рад приветствовать представителя Израиля в ЕС и НАТО Хаима Регева в представительстве Азербайджана в НАТО. Мы обсудили партнерство с НАТО, ситуацию в регионе и другие вопросы, представляющие взаимный интерес.
Мы высоко ценим открытие посольства Азербайджана в Израиле», - написал азербайджанский дипломат.

# МИД об эвакуации азербайджанских граждан из Турции

С 6 февраля из зоны землетрясений в Турции в Азербайджан были эвакуированы 513 граждан Азербайджана и членов их семей - граждан иностранных государств.
Об этом говорится в сообщении, опубликованном на официальном сайте Министерства иностранных дел Азербайджана. «Процесс эвакуации продолжается и охватывает Кахраманмараш, Хатай, Адауе, Малатью, Адыяман, Газиантеп, Шанлыурфу, Османийе, Килис и Диярбакыр», - отмечается в сообщении.

# Зангезурский коридор увеличит транзитный потенциал ТМТМ



Зангезурский коридор будет способствовать увеличению транзитного потенциала Транскаспийского международного транспортного маршрута (ТМТМ).
Об этом, как сообщили в Министерстве цифрового развития и транспорта Азербайджана, сказал замминистра Рахман Гумматов в ходе встречи со своим коллегой из Узбекистана Абдусаматом Муминовым.
Гумматов отметил, что Зангезурский коридор создаст новые экономические возможности как для стран региона, так и тюркоязычных стран.
Кроме того, в ведомстве сообщили, что стороны обсудили вопросы связанные с увеличением объемов грузоперевозок, улучшением условий, развитием инфраструктуры.
Отметим, что делегация из Узбекистана также проведет встречи с представителями ЗАО «Азербайджанские железные дороги», Наземного транспортного агентства, Бакинского порта, ЗАО «Азербайджанское Каспийское морское пароходство», Бакинского судостроительного завода.

# АИК впервые инвестировала в израильский технологический стартап

Азербайджанская инвестиционная компания (АИК) в рамках сотрудничества с израильской компанией "OurCrowd" впервые инвестировала в технологический стартап один миллион долларов.
Об этом написал министр экономики Азербайджана Микаил Джаббаров в Twitter.
"Израильский стартап LARGIX, в который были вложены инвестиции, специализируется на разработке промышленных продуктов", - написал Джаббаров.
Напомним, что в июле 2022 года было подписано инвестиционное соглашение между ОАО "Азербайджанская инвестиционная компания" и компанией OurCrowd - ведущей мировой краудфандинговой платформой Израиля.
Отметим, что на конец 2022 года инвестиционный портфель АИК и сумма финансирования по одобренным инвестициям составили 240,3 миллиона манатов.




# Гафарова: Именно Баку стал инициатором процесса нормализации отношений с Ереваном



Именно Азербайджан стал инициатором процесса нормализации отношений с Арменией и предложил последней подписание мирного соглашения с опорой на 5 главных принципов международного права.
Об этом на встрече в Москве с председателем Совета Федерации Федерального Собрания РФ Валентиной Матвиенко заявила председатель Милли Меджлиса (парламента) Азербайджана Сахиба Гафарова, сообщает Отдел прессы и связей с общественностью ММ.
По ее словам, несмотря на инициативы Баку, «Армения по-прежнему занимает разрушительную позицию на переговорах и, открыто нарушая требования трехстороннего заявления, до сих пор полностью не освободила азербайджанские территории, а напротив, препятствует открытию всех экономических и транспортных связей в регионе».
Гафарова обстоятельно проинформировала российскую сторону о сложившейся в последнее время ситуации с Лачинской дорогой.
Она подчеркнула, что Азербайджан строжайше следует трехстороннему заявлению и целиком выполнил все свои обязательства по нему.
Из 6-го параграфа этого документа следует, что Азербайджан обеспечивает безопасность двусторонней перевозки граждан и грузов, и движению в обоих направлениях транспортных средств по Лачинской дороге.
При этом было отмечено, что Армения уже более 2 лет злоупотребляет Лачинской дорогой для перевозки мин, боеприпасов и военнослужащих, а также для вывоза из Азербайджана награбленных здесь азербайджанских же природных ресурсов.
Она подчеркнула, что заявления армянской стороны о якобы перекрытии стороной азербайджанской Лачинской дороги, блокаде армянского населения и гуманитарном кризисе совершенно безосновательны».

## В МИРЕ

# Эрдоган: Турция столкнулась с одним из крупнейших природных бедствий

Турция столкнулась с одним из крупнейших природных бедствий не только в своей истории, но и в истории человечества, заявил президент Реджеп Тайип Эрдоган.
«Последствия масштабного бедствия ощутили на себе 13,5 млн жителей десяти провинций Турции. Подземные толчки ощущались на территории в 500 км. К сожалению, имели место масштабные разрушения», - приводит Anadolu слова турецкого лидера. Эрдоган выразил уверенность в том, что благодаря поддержке народа страна в короткие сроки сможет устранить последствия этого бедствия. Глава государства напомнил, что с заявлениями в поддержку Турции выступили более ста стран мира.

# В ВОЗ оценили масштабы землетрясения в Турции

Землетрясения в Турции и Сирии стали самым сильным стихийным бедствием в регионе за последнее столетие. Об этом заявил Ханс Клюге, региональный директор ВОЗ в Европе, пишет Politico.
«Мощные землетрясения, которые обрушились на центральную часть Турции и северо-запад Сирии чуть более недели назад, стали самым сильным стихийным бедствием в регионе за последнее столетие», - заявил Клюге.
Представитель ВОЗ обратил внимание, что медицинская система в Турции работает на грани, так как в стране большое число раненых.
«Мы инициировали крупнейшее развертывание бригад неотложной медицинской помощи в Европейском регионе ВОЗ за всю нашу 75-летнюю историю. Их цель - поддержать поврежденные медицинские учреждения», - добавил Клюге.

# Британская экономика потеряла более $35 млрд. инвестиций

Великобритания потеряла вследствие выхода из Евросоюза (Brexit) £29 млрд ($35,2 млрд) инвестиций. Об этом заявил представитель комитета по денежно-кредитной политике Банка Англии Джонатан Хаскел в опубликованном во вторник интервью газете Financial Times, передает Trend со ссылкой на ТАСС.
По его оценке, потери бизнеса в виде капиталовложений после референдума в 2016 году по вопросу выхода из ЕС эквивалентны 1,3% ВВП Соединенного Королевства. Эксперт не исключает, что данный показатель может увеличиться примерно до 2,8% ВВП в 2026 году, при этом уточнив, что страна последние шесть лет занимает последнее место среди членов Группы семи (G7) по привлечению инвестиций.
Королевство покинуло ЕС 1 февраля 2020 года после нескольких лет переговоров.
1 января 2021 года истек действовавший после Brexit переходный период, в течение которого на Великобританию распространялись все европейские нормы.
По словам экспертов, такой шаг привел к экономическим потерям, разрыву культурных и научных связей.

# BÖYÜK QAYIDIŞ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR QURUCULUQ VƏ DİRÇƏLİŞ YOLUNDA

*(əvvəli ötən sayımızda)*

Cəbrayıl şəhərində isə ilkin mərhələdə 10,5 hektar ərazini əhatə edən yaşayış məhəlləsi tikilib istifadəyə veriləcək. Artıq həyata keçirilməsinə başlanan ilk mərhələdə 5 bina tikiləcək və buraya 200-ə yaxın ailə, yəni 654 sakin köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaq. Bu məhəllədə və ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla müasir görkəm veriləcək.

Təbii ki, yaşayış məntəqələrində çoxmənzilli binaların və fərdi evlərin inşası ilə yanaşı, parklar, bayraq meydanları, mərkəzi meydanlar salınacaq, sosial-ictimai obyektlər tikiləcək, yaşıllaşdırma sahəsində layihələr həyata keçiriləcək, yaşayış məntəqələrinin daxili yol-küçə şəbəkəsi qurulacaq.

Bütün bu layihələrin həyata keçirilməsi nəzərdə tutulduğu vaxtlarda təmin ediləcək, ermənilər tərəfindən dağıdılmış yurd yerlərimiz tədricən bərpa olunacaq. Bunu deməyə əsas verən praktiki amillərdən biri Zəngilanda Ağalı kəndinin qısa vaxtda bərpa edilməsidir. Bu kənd Böyük Qayıdışın rəmzinə çevrilib və 30 ilə yaxın məcburi köçkün vəziyyətində yaşayan bu kəndin sakinləri artıq doğma evlərinə dönüblər. Ağalı kəndinin bərpası yaşayış yerlərinin bərpası ilə bağlı mükəmməl nümunədir. Kənddə 200 fərdi yaşayış evi, 360 şagird yerlik ikimərtəbəli məktəb, 60 yerlik bağça binası, 4 ədəd qeyri-yaşayış binası, Zəfər meydanı tikilmiş, sahədaxili su, kanalizasiya, elektrik, rabitə sistemləri, 2 ədəd 250 m3 tutumu olan su anbarları tikilmiş və kommunikasiya xətləri çəkilmişdir. "Yaşıl enerji" istehsal edən Arximed qurğusu və xüsusi qurğular quraşdırılmışdır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı ilkin mərhələdə bərpa olunacaq 100 yaşayış məntəqəsindən (8 şəhər, 8 qəsəbə və 84 kənd) 7 şəhər, 36 qəsəbə və kənd olmaqla – ümumilikdə 43 yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədləri hazırlanmaqdadır. Həmin kəndlərdən üçünün – Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin cənab prezident tərəfindən 2022-ci il oktyabrın 4-də təməli qoyulub.

Qalan 57 yaşayış məntəqəsi üzrə isə 2023-cü ildə 38 yaşayış məntəqəsinin, o cümlədən Laçın şəhərinin, eləcə də 37 qəsəbə və kəndin, 2024-cü ildə isə 19 yaşayış məntəqəsinin layihələndirilməsi, ikinci mərhələdə bərpası nəzərdə tutulan yaşayış məntəqələrindən isə 37 ədədinin 2025-2026-cı illərdə layihələndirilməsi planlaşdırılır.

Proqrama əsasən, Qarabağ və Şərqi Zəngəzura 2026-cı ilədək 34 min 500 ailə köçürüləcək. Bu isə növbəti 4 ildə 160 minə yaxın vətəndaşımızın öz ata-baba yurdlarına qayıtması deməkdir.

Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların öz doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün ilk növbədə tələblərə cavab verən infrastruktur mövcud olmalıdır.

Təsadüfi deyil ki, azad edilmiş ərazilərdə ilk yenidənqurma işləri də məhz infrastrukturların bərpasından, yolların salınmasından, elektrik xətlərinin çəkilməsindən başlayıb. Görünən odur ki, "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları əsasında bərpa edilən şəhərlərimiz həm də müasir və əlçatan infrastruktura malik olacaq.

Dövlət proqramında da bununla bağlı hədəflər müəyyən edilib. Bu əsasda bütün azad edilmiş ərazilərimiz qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə, ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaq.

Unutmaq lazım deyil ki, şəhərsalma tədbirləri çərçivəsində texnoloji, demoqrafik və ekoloji şərtlərin təsiri altında dünyada dəyişən qlobal şəhər planlaşdırma tendensiyaları nəzərə alınmalıdır. Çünki bu tendensiyaların adaptiv tətbiqi yaşayış məntəqələrində iqtisadi məhsuldarlığın artımına, həyat səviyyəsinin yüksəldilməsinə və dayanıqlılığın möhkəmlənməsinə əlavə stimuldur. Ona görə də Proqrama əsasən yaşayış məntəqələrində iqtisadi məhsuldarlığın artırılması, həyat səviyyəsinin yüksəldilməsi və dayanıqlılığın möhkəmləndirilməsi üçün bütün infrastrukturun sistemli planlanması istiqamətində hədəflər müəyyən olunub.

Proqram çərçviəsində hər bir rayon üzrə yaşayış məntəqələrinin salınacağı ərazilərin və ona dəstək infrastrukturlarının xəritələri hazırlanacaq. İndiyədək ərazilərdəki daşınmaz əmlak və infrastruktur obyektlərinin ilkin inventarlaşdırılması yekunlaşmışdır. Ümumilikdə 14 min daşınmaz əmlakın (12,2 min ədəd tikili və 1,8 min ədəd infrastruktur obyekti) çöl-inventarlaşdırma işləri tamamlanmışdır.

İnfrastrukturlarla bağlı konkret istiqamətlərə gəldikdə, təhsil sahəsində ümumi və (müxtəlif təmayüllü məktəblər, liseylər və gimnaziyalar, internat tipli xüsusi ümumtəhsil məktəbləri, inteqrasiya təlimli internat tipli məktəblər) və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və bərpası, ölkənin müvafiq ali təhsil müəssisəsinin filiallarının yaradılması, regional tibbi təhsil müəssisələrinin yaradılması planlaşdırılır. Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Qubadlı rayonunda 16, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur.

İndiyə qədər Suqovuşanda 144 şagird yerlik tam orta məktəb əsaslı təmir olunub. Zəngilanda orta məktəb binasının, Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, Ağdam şəhər 1 saylı məktəbin, Şuşada 1 saylı məktəbin, Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməli qoyulub.

Tibbi sahələrdə 8 rayon mərkəzi xəstəxanasının, 8 gigiyena və epidemiologiya mərkəzinin, 3 təcili tibbi yardım stansiyasının, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin 7 rayon şöbəsinin, 2 hərbi hospitalın, psixiatriya, onkologiya və vərəm əleyhinə xəstəxanaların, Regional Perinatal Mərkəzin, Regional Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin, QİÇS-lə Mübarizə Mərkəzinin, Narkoloji dispanserin, Mərkəzi Qan Bankının regional bölməsinin tikintisi və tibbi xidmətin təşkili qarşıda duran vəzifələr sırasındadır. 2023-2026-cı illərdə azad olunmuş ərazilərdə 49 ailə sağlamlıq mərkəzinin və 39 tibb məntəqəsinin tikintisinin layihələndirilməsi, 41 ailə sağlamlıq mərkəzinin, 33 tibb məntəqəsinin tikintisinin başa çatdırılması nəzərdə tutulur.

Ötən dövrdə Zəngilan rayonunun Ağalı kəndində və Xocavənd rayonunun Hadrut qəsəbəsində ailə sağlamlıq mərkəzlərinin fəaliyyəti təşkil edilib. Füzuli, Ağdam, Şuşa və Cəbrayıl rayon mərkəzi xəstəxanalarının təməli qoyulub.

İşğaldan azad olunmuş ərazilərdə olimpiya idman kompleksləri, üzgüçülük hovuzları, gimnastika, güləş, əl oyunları, açıq tipli idman meydançaları, gənclər evləri də inşa ediləcək.

Proqram çərçivəsində azad olunmuş ərazilərdə 1 olimpiya idman kompleksi, 2 gənclər evi, 2 universal idman zalı və Ağdamda "İmarət" stadionu tikilərək istifadəyə veriləcək.

Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Hadrut və Suqovuşanda yaradılacaq Heydər Əliyev mərkəzləri azad edilmiş ərazilərin yeni ünvanları olacaq.

Qarşıya qoyulan məqsədlərə uyğun olaraq, ərazilərdə məskunlaşacaq əhali üçün layiqli həyat şəraitinin təmin edilməsi istiqamətində yaşayış məntəqələrində müxtəlif dövlət xidmətlərinə universal çıxışın təmin edilməsi istiqamətində də mühüm addımlar atılmaqdadır. Artıq Zəngilan rayonunun Ağalı kəndində "ASAN xidmət"in fəaliyyəti təşkil edilib. 2026-cı ilədək azad olunmuş ərazilərdə yeni "ASAN xidmət" mərkəzləri, o cümlədən Cəbrayılda DOST mərkəzi, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşa şəhərində DOST Mərkəzinin filialları yaradılacaq.

Göründüyü kimi, sosial, xidmət və mədəni infrastrukturların bərpası başlanılıb və müzəffər Ordumuzun işğaldan azad etdiyi ərazilərimizdə 2026-cı ilə qədər yeni sosial və mədəni infrastrukturların yaradılması təmin olunacaq.

Yaşayış məntəqələrinin kommunal (elektrik enerjisi, qaz, istilik və isti su, içməli su təchizatı, tullantı sularının axıdılması və təmizlənməsi, yağış sularının idarə olunması) və rabitə xidmətləri ilə təmin edilməsi istiqamətində də layihələr reallaşdırılacaq.

Xatırladaq ki, indiyə kimi Ağdam rayonunda 110 kV-luq ikidövrəli Təzəkənd hava xəttinin əksər hissəsi bərpa edilmiş, Ağdam şəhəri ərazisində tikintisi davam edən obyektlərin müvəqqəti elektrik enerjisi ilə təchizatı təmin olunmuş, Mərzili kəndində yerləşən Sülhməramlıların Monitorinq Mərkəzi elektrik enerjisi ilə təchiz edilmişdir.

Füzuli rayonu ərazisində 9 km uzunluğunda 10 kV-luq yeni elektrik hava xətti çəkilmiş, Yuxarı Veysəlli yaşayış məntəqəsində yerləşən hərbi hissələr elektrik enerjisi ilə təchiz olunmuşdur, Füzuli şəhərində 35 KV-luq rəqəmsal yarımstansiya tikilmişdir.

Cəbrayıl rayonunda 10 kV-luq elektrik verilişi xətti çəkilmiş, Hərəkül kəndində yerləşən 35/10 kV-luq yarımstansiyadan Hadrut qəsəbəsindəki 35/10 kV-luq yarımstansiyaya qədər hava xətti bərpa edilmiş və Hadrut qəsəbəsində yerləşən strateji obyektlər elektrik enerjisi ilə təmin olunmuş, Cəbrayılın İranla sərhədində Sərhəd Qoşunları zastavalarının elektrik təchizatı üçün 10/0,4 kV-luq 2 ədəd güc transformatoru quraşdırılmışdır.

Şuşa şəhərinin və yaxın ərazilərinin elektrik enerjisi ilə təmin olunması üçün 35/0,4 kV-luq 4 ədəd yarımstansiya tikilmiş, avadanlıqların quraşdırılması və 35 kV-luq ikidövrəli əlaqələndirici kabel xətlərinin çəkilməsi təmin edilmiş, qazanxanaların, İcra Hakimiyyətinin binasının və 5 ədəd yaşayış binasının istilik elektrik təchizatı qarşılanmışdır. "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına 35 kV-luq 27 km uzunluğunda elektrik verilişi xətti çəkilmiş, "Hadrut" – "Qırmızı Bazar" mövcud birdövrəli hava xəttinin Hadrut qəsəbəsindən Zoğalbulaq kəndinə qədər 12,7 km uzunluğunda hissəsi əsaslı təmir edilmişdir, "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilmişdir. Həmçinin, Şuşa rayonunda qazanxana və istilik məntəqəsi tikilmiş, müxtəlif təyinatlı binalarda məhəllədaxili və binadaxili istilik və isti su təchizatı sistemləri qurulmuşdur. Bunlardan başqa, Şuşa və Bakı şəhərləri arasında sabit telefon rabitəsi bərpa edilib, şəhərdaxili rabitə şəbəkəsinin yenidən qurulması işlərinə başlanılıb, abunəçilər yüksəksürətli internet və telefon xidmətləri ilə təmin olunub.

***Tərtər rayonu, Suqovuşan qəsəbəsinin və ətraf ərazilərin elektrik təchizatı ilə əlaqədar 35/10 kV-luq "Suqovuşan" yarımstansiyası tikilmiş, 110/35/10 kV-luq "Tərtər" yarımstansiyasından müasir tipli 35 kV-luq ÖİN (özünüdaşıyan izolyasiyalı naqillər) elektrik veriliş xətti çəkilmiş, strateji əhəmiyyətli obyektlər elektrik enerjisi ilə təmin olunmuşdur.***

Zəngilanda Beynəlxalq Hava Limanına 11 km uzunluğunda ikidövrəli ÖİN elektrik veriliş xətti çəkilmiş, ərazidə transformator məntəqəsində avadanlıqlar quraşdırılmışdır, Ağalı kəndinin xarici elektrik təchizatı üçün Zəngilan 110/35/10 yarımstansiyasından 18 km uzunluğunda ikidövrəli ÖİN elektrik veriliş xətti çəkilmişdir. Ağalı kəndindəki fərdi evlər və qeyri-əhali kateqoriyalı abunəçilər isə telefon və internetlə təmin olunmuşdur. ***Qubadlı rayonuna 28 km, Zəngilan rayonuna xəttin davamı olaraq 18 km uzunluğunda elektrik verilişi xətti çəkilmişdir. Xocavənddə 400 kVA və 1000 kVA gücündə Komplekt Transformator Məntəqələri quraşdırılmış, 13 km uzunluğunda ÖİN xətti çəkilmiş, Hadrut qəsəbəsində 35 KV-luq yarımstansiya tikilmişdir.***

Kəlbəcər rayonunda strateji obyektlərin elektriklə təchizatı üçün hava xətləri çəkilmiş, Komplekt Transformator Məntəqələri quraşdırılaraq gərginlik verilmiş, dövlət sərhədi elektrik enerjisi ilə təmin olunmuşdur.

Laçın rayonunda "Güləbird" SES-dən Laçın dəhlizinədək olan hissədə 35 kV-luq birdövrəli hava xətti bərpa edilmiş, Laçın dəhlizində 10 km məsafədə 35 kV-luq universal ÖİN kabel xətti çəkilmiş, bir sıra yaşayış yerlərində ÖİN xətti çəkilmiş və Komplekt Transformator Məntəqələri quraşdırılmışdır.

Qarşıdakı illərdə Şuşa, Xocavənd, Ağdam, Füzuli, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarının yaşayış məntəqələrində elektrik təchizatı şəbəkəsinin tikintisi, qaz paylayıcı, habelə istilik və isti su təchizatı şəbəkələrinin qurulması, rabitə xidmətlərinin yaradılması davam etdiriləcək. Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında 35 KV-luq Rəqəmsal yarımstansiyalar inşa olunacaq. İçməli su təchizatı, tullantı sularının axıdılması və təmizlənməsi, yağış sularının idarə olunması şəbəkələrinin qurulması ilə əlaqədar 97 yaşayış məntəqəsində müvafiq şəbəkələrin tikintisi başa çatdırılacaq.



### 3. ƏHALİNİN GERİ QAYIDIŞI VƏ ƏRAZİLƏRDƏ DAYANIQLI İCMALARIN YARADILMASI

Bu gün Azərbaycan dövlətinin milli ideyası və prioriteti işğal nəticəsində məcburi köçkün düşmüş vətəndaşlarımızın doğma yurdlarına qayıdışı, onların layiqli həyat səviyyəsinin təmin edilməsidir. Hərtərəfli, təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün əvvəldə də qeyd edildiyi kimi, layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin bərpasının, dayanıqlı inkişafının və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdışının effektiv həyata keçirilməsi idarəetmə və təhlükəsizlik məsələlərinin həlli, yaşayış yerlərinin, zəruri infrastrukturun və sosial xidmətlərin təmin olunması və məşğulluq imkanlarının yaradılması kimi vacib prioritetlərə kompleks yanaşmanı tələb edir. Əhalinin geri qayıdışı prosesi sosial-iqtisadi inkişaf dinamikası və demoqrafik meyillər nəzərə alınmaqla, sosial ədalətin qorunması prinsipinə uyğun aparılmalıdır. Elə buna görə də Dövlət Proqramında əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması prioritet istiqamətlərdən biri kimi müəyyən edilmiş və bu istiqamətdə qarşıya konkret vəzifələr qoyulmuşdur. Proqram çərçivəsində məcburi köçkünlərin qayıdışının səmərəli təşkili və hüquqi bazasının yaradılması məqsədilə müvafiq normativ hüquqi aktların qəbul edilməsi, həmçinin əhali arasında məlumatlılığın artırılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi üçün təbliğat işlərinin şaxələndirilməsi həyata keçiriləcək tədbirlərə daxildir. Eyni zamanda, əhalinin geri qayıdışı ilə bağlı müvafiq məlumat bazasının yaradılması, statistik göstəricilərin təhlili və məlumatların əlçatanlılığının təmin olunması da prioritet işlərdəndir.

Bu istiqamətdə qarşıya qoyulan konkret vəzifələrə gəldikdə, ilk növbədə məcburi köçkünlər arasında sosioloji sorğular davam etdiriləcək və bu sorğuların əsasında əhalinin geri qayıdışı ilə bağlı ilkin proqnozlar hazırlanacaq. Bu zaman məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması da nəzərdə tutulur. Onlar tərtib edilmiş planlar üzrə bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə köçürüləcəklər. Əhalinin yaşayış məntəqələrinə qayıdışının asanlaşdırılması və gənclərin bu prosesdə iştirakının təşviqi üçün işğaldan azad olunmuş ərazilərdə məcburi köçkün gənclərdən ibarət könüllü proqramlar icra ediləcək.

*(davamı gələn sayımızda)*

**Akademik Ziyad SƏMƏDZADƏ**

# AZƏRBAYCANIN ENERJİ RESURSLARININ İXRACINDA ŞAXƏLƏNMƏ PROSESİ DƏRİNLƏŞİR




***İndiyədək Azərbaycanda enerji təhlükəsizliyi sahəsində bir sıra önəmli layihələr reallaşdırılıb. Bu, ölkəmizin böyük enerji potensialına malik olduğunu göstərir. Neft və qaz istehsalı ilə bərabər, respublikamız texniki baxımdan istifadəsi mümkün olan, bərpa olunan enerji resurslarına malikdir.***

Bu sahədə potensialımız 27.000 MVt təşkil edir ki, bunun da 3000 MVt hissəsi külək enerjisinin, 23.000 MVt hissəsi günəş enerjisinin, 380 MVt hissəsi bioloji enerjinin, 520 MVt hissəsi isə dağ çaylarının payına düşür.

***Azərbaycanın müxtəlif enerji mənbələri ilə zəngin olması onu dünya enerji bazarlarında önəmli ölkəyə çevirmişdir.***

Ölkəmizdə neft və qaz ixracı üzrə tranzit imkanlarının işə salınması yeni reallıqlar fonunda yanaşmaya zərurət yaradır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsindən sonra təbii qaz ehtiyatlarının Avropa bazarına çıxarılması iqtisadi prestij baxımından dövlətimizin mövqelərini daha da möhkəmləndirdi. Belə ki, 2021-ci ildə Azərbaycan ilə Avropa Komissiyası arasında Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamənin imzalanması təbii qaz ehtiyatı baxımından zəngin olan ölkəmiz ilə Avropa arasında həyata keçirilən əməkdaşlıq əlaqələrində önəmli addım hesab olunur.

Cənub Qaz Dəhlizi layihəsinin əsas elementləri "Şahdəniz" qaz yatağının tam miqyaslı işlənməsi, Cənub Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans Adriatik Boru Kəməri (TAP) layihələridir. Cənub Qaz Dəhlizi layihəsinin məqsədi "Şahdəniz" qaz kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndirilmiş Cənub Qafqaz Boru kəməri, TANAP və TAP vasitəsilə ilkin olaraq Türkiyəyə və Cənubi Avropaya ixracınının təmin edilməsidir. "Şahdəniz" layihəsinin tam miqyaslı işlənməsinin 2-ci mərhələsi olan "Şahdəniz mərhələ-2" layihəsi Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıracaq nəhəng layihə olmaqla Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarlarına qaz ixrac edərək, həmin ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına təsir göstərəcək. Cənub Qaz Dəhlizinin əsas qollarını "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri təşkil edir.

***TANAP qaz kəməri 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Giriş nöqtəsi Gürcüstan-Türkiyə sərhədi (Ardahan-Posaf), Avropaya çıxış nöqtəsi isə Türkiyə-Yunanıstan sərhədi (Ədirnə-İpsala) olan TANAP Avropaya təbii qazı ötürən TAP kəmərinə qoşulur. Dəhliz, eyni zamanda 7 hökuməti və 11 şirkəti əhatə edən çoxyönlü layihədir.*** Bu layihə dünyada ən mühüm təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Şübhəsiz ki, bu gün Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizi Xəzər regionundakı qaz ehtiyatlarını Avropa bazarına daşımaqla dünyanın enerji xəritəsini dəyişir. TANAP dövlətimizin Avropa ilə mövcud iqtisadi və siyasi əməkdaşlığının dərinləşməsinə öz töhfələrini verir. Gələcəkdə Azərbaycanın digər yataqlarından əldə ediləcək ehtiyatlar ilə Cənubi və Şərqi Avropa ölkələri üçün əhəmiyyətli qaz ixracatçısı olacağına heç bir şübhə yeri qalmır.TANAP və Cənub Qaz Dəhlizi Azərbaycanın həyata keçirdiyi təşəbbüslərdir.

TANAP daxil olmaqla bütövlükdə Cənub Qaz Dəhlizinin reallaşması dövlət başçısının siyasi iradəsi və göstərdiyi çabalar nəticəsində mümkün olmuşdur. Cənub Qaz Dəhlizi ilə bağlı müzakirələr aparılan zaman bu layihələrin xərcləri böyük olduğu üçün onun maliyyələşdirilməsinə əngəllər törədilirdi. Bütün bunlara baxmayaraq, cənab Prezident İlham Əliyevin ciddi səyi hesabına bu maneələr aradan qaldırıldı. Azərbayanın dəstəyi ilə ölkəmizə göstərilən etibar olmasaydı, Cənub Qaz Dəhlizinin gerçəkləşdirilməsi mümkün olmayacaqdı. Sözügedən layihələri reallaşdırmaqla Azərbaycan həm özünün, həm də region ölkələrinin iqtisadi yüksəlişinə geniş imkanlar açdı.

***Neft və qaz ixracına əsaslanan enerji tranzitində artıq yeni dövrün – "yaşıl enerji" dövrünün başlanması zərurətə çevrilib. Bu isə o deməkdir ki, Azərbaycan artıq tükənə bilən enerji ehtiyatlarının ixracından əlavə, yenilənə bilən enerjinin də ixracatçısı və Avropa bazarına çıxarılmasının təminatçısı kimi çıxış edəcəkdir. Bu yaxınlarda Buxarestdə "Azərbaycan Respublikası, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması bunu bir daha təsdiq etmiş oldu.*** Bu hadisə Azərbaycanın gələcəkdə böyük enerji təminatçısı olmasının real təcəssümüdür. ***Cari ilin fevral ayının 3-də Bakıda Gülüstan sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasları keçirildi. İclaslarda enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TRAP, TAQA, SNAM və s., həmçinin maliyyə təşkilatlarından Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər qurumların iştirakı gələcəkdə "yaşıl enerjinin" ixracı, təhlükəsizliyi və istifadəsi üçün böyük əhəmiyyət kəsb edir.*** Bu layihələr Azərbaycanın alternativ enerji mənbələrindən istifadə etməklə enerji təchizatının davamlı şaxələndirilməsi üçün çox geniş imkanlar açacaq.

**Zülfü İLYASOV,**
**"İqtisadiyyat" qəzetinin**
**xüsusi müxbiri**

# Marketlərdə ödənişli olacaq polietilen torbaların qiymətləri məlum olub

Azərbaycanda artıq ticarət obyektlərində alış-veriş zamanı polietilen torbalar üçün ayrıca haqq alınacaq.

İri market şəbəkələrində aparılan araşdırmaya görə, fevralın 15-dən kiçik ölçülü torbalar 3 qəpiyə, böyük ölçülülər isə 5 qəpiyə satılacaq.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirilib ki, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən, sahibkarlar Azərbaycan qanunvericiliyinə əməl etməklə öz malları (məhsulları, işləri, xidmətləri) üçün qiymətləri (tarifləri) sərbəst müəyyənləşdirmək hüququna malikdir.

Sorğuya cavabda deyilir ki, Nazirlər Kabinetinin 28.09.2005-ci il tarixli 178 saylı qərarı ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin,



xidmətlərin) Siyahısı" təsdiq edilib: "Polietilen torbaların qiymətləri həmin siyahıya daxil edilmədiyi üçün onun qiyməti bazar prinsiplərinə uyğun olaraq tələb və təklif əsasında formalaşır.

İstehlak bazarında sahibkarlar tərəfindən istehlakçılara müxtəlif qiymət və şərtlərlə mal və xidmətlər təklif olunur. Mövcud qanunvericiliyə əsasən istehlakçı onların arasından qiyməti və istehlak xassələri daha uyğun olan malı və ya xidməti öz ehtiyacına və zövqünə görə sərbəst seçərək ala bilər".

Bildirilir ki, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 28 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"na əsasən, ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərilməsi (işlərin görülməsi) zamanı istehlakçılar (alıcılar) tərəfindən malların və məhsulların daşınması üçün nəzərdə tutulan qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngülçəkili polietilen torbalar istehlakçılara (alıcılara) ayrıca məhsul növü kimi təqdim edilməlidir.

"Bu növ məhsulların ayrıca təqdim edildiyi və satış qiyməti barədə istehlakçıya (alıcıya) əvvəlcədən məlumat verilməlidir", - Xidmətin cavabında deyilir.

## «STATUS SIĞORTA BROKERİ» MMC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 0,00 | 0,00 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 0,00 | 0,00 |
| **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| **Qeyri-maddi aktivlər** | 12 856,00 | 12 856,00 |
| **Sair aktivlər** | 114 094,43 | 134 831,12 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **126 950,43** | **147 687,12** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 0,00 | 0,00 |
| **Debitor borcları:** | 1 718,15 | 1 228,24 |
| birbaşa sığorta üzrə | 704,47 | 212,56 |
| büdcə üzrə | 1 015,68 | 1 015,68 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **1 333,34** | **1 939,64** |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | **1 333,34** | **1 939,64** |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **3 051,49** | **3 167,88** |
| **CƏMİ AKTİVLƏR** | **130 001,92** | **150 855,00** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **İlin əvvəlinə** | **Hesabat dövrünün sonuna** |
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 10,00 | 10,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 90 928,89 | -109 332,62 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -21 399,41 | -18 403,73 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | -42 702,44 | -64 101,85 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -26 827,04 | -26 827,04 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | **-90 918,89** | **-109 322,62** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Kreditor borcları :** | 5 711,92 | 0,00 |
| əməyin ödənilməsi üzrə | 4 162,15 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 1 549,77 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 124 290,00 | **149 310,00** |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **130 001,92** | **149 310,00** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| **Kreditor borcları:** | **0,00** | **1 545,00** |
| əməyin ödənilməsi üzrə | 0,00 | **0,00** |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | **1 545,00** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **0,00** | **1 545,00** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **130 001,92** | **149 310,00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **39 083,03** | **41 532,38** |

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 0,00 |
| **Sair gəlirlər** | 4.340,45 |
| **CƏMİ GƏLİRLƏR** | **4.340,45** |
| **Xərclər** | |
| **İşlərin aparılması xərcləri** | **22 744,18** |
| **Sair xərclər** | **0,00** |
| **CƏMİ XƏRCLƏR** | **22 744,18** |
| **Maliyyə mənfəəti (zərəri)** | -18.403,73 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | -18.403,73 |
| **Mənfəət vergisi** | |
| **Hesabat dövründə xalis mənfəət zərər)** | -18.403,73 |

# Azərbaycandakı aktiv vergi ödəyicilərinin sayı açıqlanıb

Dövlət Vergi Xidmətinin yaydığı məlumatda bildirilir ki, 2023-cü il fevralın 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 0,3 faiz artaraq 713,8 minə çatıb. Həmin tarixə aktiv ƏDV ödəyicilərinin sayı 1,3 faiz artıb və 40,5 min olub.

Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı 188,5 min təşkil edib.

## Qarabağın görkəmli simaları

# Cəlal Allahverdiyev (1929-2017)

*Azərbaycan riyaziyyatçısı, əməkdar elm xadimi, Azərbaycan SSR Dövlət mükafatı laureatı, AMEA-nın həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Allahverdiyev Cəlal Eyvaz oğlu 17 sentyabr 1929-cu ildə Şuşada anadan olmuşdur.* Cəlal Allahverdiyev 1945-ci ildə Bakı şəhərində 1 saylı orta məktəbi bitirmiş, lakin Şuşada oxuduğu illər üçün qiymət cədvəli olmadığına görə attestatını ala bilməmişdir. 1946-cı ildə Şuşa şəhərində məktəbi "əla" qiymətlərlə bitirmiş və adı qızıl medala təqdim edilmişdir, lakin Maarif Nazirliyində riyaziyyat fənnindən "əla" qiymətini "yaxşı" ilə əvəz edərək, gümüş medal vermişlər.



*Cəlal Allahverdiyev 1951-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir və Mstislav Keldışın rəhbərliyi ilə Moskva Dövlət Universitetinin aspirantı olmuş, 1957-ci ildə "Öz-özünə qoşma olmayan tənliklərin bəzi siniflərinin məxsusi və birləşmiş funksiyalar sisteminin tamlığı haqqında" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. 1968-ci ildə SSRİ EA Tətbiqi Riyaziyyat İnstitutunda "Spektral parametrdən rasional asılı öz-özünə qoşma olmayan operatorların məxsusi qiymətləri və məxsusi elementləri haqqında" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. SSRİ AAK tərəfindən ona 1969-cu ildə professor elmi adı verilmişdir.*

Onun ən məşhur elmi nəticəsi Allahverdiyev teoremi adı altında bir çox kitablara, o cümlədən funksional analiz dərsliklərinə salınmışdır.

Cəlal Allahverdiyevin Milli Aviasiya Akademiyasının elmi məqalələr jurnalında tələbələri ilə birgə dərc edilmiş bir sıra əsərlərində kompüterlərin iş prinsiplərinin nəzəri əsaslarının araşdırılması, təkmilləşdirilməsi, təbii dillərdə, o cümlədən Azərbaycan dilində kompyuterlə ünsiyyət mexanizmlərinin işlənib hazırlanması və Azərbaycan dilinin qrammatikasının təkmilləşdirilməsi, Azərbaycan dilinin formal qrammatikasının yaradılması istiqamətində fundamental məsələlər araşdırılmış və mühüm elmi nəticələr alınmış, deduktiv maşında qeyri-səlis çoxluqların təsviri və deduktiv nəticə alınmasının uyğun mexanizmi verilmişdir.

Cəlal Allahverdiyev 1957-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsində əvvəlcə müəllim, sonra isə baş müəllim işləmişdir. 1960-cı ildə Azərbaycan SSR EA-da yeni yaradılmış Hesablama Mərkəzində şöbə müdiri, sonra isə elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1960-cı ildən AMEA Kibernetika İnstitutunun "İdarəetmənin riyazi məsələləri" laboratoriyasının müdiri işləmişdir.

*1969-1970-ci illərdə Azərbaycan SSR EA Kibernetika İnstitutunda elmi işlər üzrə direktor müavini, 1970-1988-ci illərdə həmin institutda direktor vəzifəsində çalışmışdır. 1988-1994-cü illərdə Bakı Dövlət Universitetinin elmi işlər üzrə prorektoru işləmişdir. 1994-cü ildən bu universitetin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "Əməliyyatlar tədqiqi və riyazi modelləşdirmə" kafedrasının müdiri vəzifəsində çalışmışdır. 1975-ci ildə ABŞ, 1976-cı ildə isə Böyük Britaniyanın bir sıra universitetlərində mühazirələr oxumuşdur. 1996-cı ildə Hindistan, 1997-ci ildə isə Argentinada keçirilmiş məktəblilərin Beynəlxalq riyaziyyat olimpiadasında Azərbaycan komandasının rəhbəri olmuşdur. 1998-2000-ci illərdə İstanbul Universitetində çalışmışdır. Azərbaycan Sovet Ensiklopediyasının elmi redaksiya şurasının üzvü olmuşdur.*

Akademik, böyük alim Cəlal Allahverdiyev 19 yanvar 2017-ci ildə 87 yaşında Bakı şəhərində dünyasını dəyişmişdir.

# Təbrik edirik!

*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, İnstitut Həmkarlar Təşkilatının sədri Paşa Tanrıverdi Əhməd oğlu respublikada həmkarlar ittifaqı hərəkatının inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07 fevral 2023-cü il tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.*



T.Paşa 300-dən artıq elmi əsərin – monoqrafiya və məqalələrin, terminoloji lüğətlərin müəllifi olmaqla yanaşı, uzun illər ərzində Nazirlər Kabinetinin Sərəncamı ilə yaradılan "Statistika Şurasının" və "Metodoloji Şuranın" üzvü olmuş, hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəzdindəki Terminologiya Komissiyasının üzvüdür. 1989-cu ildən İqtisadiyyat İnstitutunun Həmkarlar Təşkilatının sədri, İnstitut Elmi Şurasının üzvü və hazırda AMEA Azad Həmkarlar Komitəsi Rəyasət Heyətinin üzvüdür.

Tanrıverdi müəllim öz fəaliyyəti ilə istər İnstitut, istərsə də AMEA miqyasında həmkarlar ittifaqı hərəkatının ən yaxşı ənənələrinin qorunub saxlanılmasında və inkişaf etdirilməsində, sosial tərəfdaşlığın səmərəliliyinin artırılması üçün əməli işlər görülməsində, ittifaq üzvlərinin əmək və sosial-iqtisadi hüquqlarının, qanuni mənafelərinin qorunması və müdafiəsində, əməkdaşların iş şəraitinin yaxşılaşdırılması və istirahətinin təşkilində, əmək münasibətlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayıb. 2005-ci ildə məhsuldar elmi fəaliyyətinə görə və AMEA-nın 60 illik yubileyi ilə əlaqədar AMEA Rəyasət Heyətinin, 2018 və 2022-ci illərdə AMEA İctimai Elmlər Bölməsinin Fəxri Fərmanları ilə, həmkarlar hərakatında fəaliyyətinə görə 2019-cu ildə Azərbaycan Respublikası Azad Həmkarlar Konfederasiyasının "Fəxri Döş Nişanı", 2020-ci ildə AMEA Azad Həmkarlar İttifaqının Fəxri Fərmanı ilə təltif edilmişdir.

İnanırıq ki, Tanrıverdi Paşa bundan sonra da istər elmi fəaliyyətində, istərsə də çalışdığı kollektivdə işçilərin sosial problemlərinin həllində qətiyyət və əzmkarlıq göstərəcək, onların sosial rifah halının yaxşılaşdırılması istiqamətində səylər nümayiş etdirəcəkdir.

**Tanrıverdi müəllim!**

Biz Sizi zəngin biliklərə malik, saf əqidəli, səmimi və zəhmətkeş bir insan kimi tanıyırıq. Siz iqtisadçı alimlərin, professional iqtisadçıların yaxın dostusunuz. Bunu öz fəaliyyətinizlə, işinizlə dəfələrlə sübut etmisiniz.

Azərbaycanda həmkarlar hərəkatının inkişafında xidmətlərinizə görə Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin elmi-redaksiya şurası Sizi **"Tərəqqi"** medalı ilə təltif olunmağınız münasibətilə ürəkdən təbrik edir, elmi, ictimai-siyasi və həmkarlar hərəkatındakı fəaliyyətinizdə yeni-yeni uğurlar və nailiyyətlər arzulayır.

Azərbaycanda həmkarlar hərəkatının inkişafında xidmətlərimə görə "Tərəqqi" medalı ilə təltif olunmağımla əlaqədar ölkə Prezidenti cənab İlham Əliyevə sonsuz sayğımı və təşəkkürümü bildirirəm. Bu yüksək mükafatı həm də İqtisadiyyat İnstitutunun ölkəmizin elmi, ictimai-siyasi həyatında xüsusi fərqlənməsinə verilən yüksək qiymət kimi qəbul edirəm. Həmçinin məni təbrik edən bütün dostlarıma, həmkarlarıma və İnstitut əməkdaşlarına, İnstitut Həmkarlar Təşkilatının fəaliyyətini, əməkdaşlarımızın bütün sosial-iqtisadi, istirahət ehtiyaclarını və qayğılarını daima dəstəkləyən – Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyevə və AMEA AHİ-nin sədri, professor Habil Qurbanova xüsusi minnətdarlığımı bildirirəm.

**Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun Həmkarlar Təşkilatının sədri Tanrıverdi Paşa**

# Dr.Şəhla Ağayeva: "Ürək-damar xəstəlikləri vaxtında aşkarlandıqda, onların müalicəsi daha effektli olur"

Hazırda bütün dünyada baş verən ölümlərin əsas səbəbi ürək-damar xəstəlikləridir. XXI əsrdə məhz bu xəstəliklər müxtəlif səbəblərdən geniş yayılmaqdadır. Ürək-damar xəstəliklərindən ölüm hallarının beşdə dördündən çoxu infarkt və insult nəticəsində baş verir, bu ölümlərin üçdə biri vaxtından əvvəldir. Çox təəssüflə qeyd etmək lazımdır ki, hazırda ürək-damar xəstəlikləri xeyli cavanlaşıb. Ürək-damar xəstəliklərinin səbəbləri, əlamətləri hansılardır və xəstəliyin qarşısının alınması üçün nə etmək lazımdır? Bütün bu suallarla Mərkəzi Gömrük Hospitalının invaziv-kardioloqu Dr.Şəhla Ağayevaya müraciət etdik.



***- Şəhla həkim, hazırda insanlar arasında ürək-damar xəstəlikləri artır və bu xəstəliklər get-gedə cavanlaşır. Bunun əsas səbəbləri barədə nə deyə bilərsiniz?***

- Əvvəla, onu deyim ki, orqanlarımızın fəaliyyəti üçün lazım olan maddələri daşıyan ürəkdir və bu vəzifəni yerinə yetirmək üçün o, dəqiqədə orta hesabla 70 dəfə döyünür və hər dəfə qanı orqanlarımıza çatdırır. Qan orqanlara damarlar vasitəsi ilə daşınır. Hər orqan kimi ürəyin də qidalanması vacibdir. Ürəyin özünü qidalandıran damarlara "koronar damarlar" (koronar arteriyalar) deyilir. Koronar damarlarda ola biləcək xəstəliklər birbaşa ürəyin fəaliyyətinə və səmərəliliyinə təsir edir. Ürəyi qidalandıran koronar arteriyaların daralması və ya tıxanması, ürəyin öz ehtiyacı olan oksigen və qida maddələrini ala bilməməsinə və funksiyalarının pozulmasına gətirib çıxarır ki, bu xəstəliyə ürəyin işemik xəstəliyi və ya koronar arteriya xəstəliyi deyilir. Koronar arteriya xəstəliyi, bütün dünyada olduğu kimi, ölkəmizdə də insanlar arasında ölüm və iş qabiliyyəti itkisinin səbəbidir. Ürək-damar xəstəliklərinin son vaxtlar artmasının əsas səbəbləri oturaq həyat tərzi, stress, sağlam olmayan qidalanma, az hərəkətlilik, piylənmə, artıq çəki, zərərli vərdişlər: tütün məhsullarından, enerjili və alkoqollu içkilərdən istifadədir. Digər önəmli risk faktorlarına yanaşı xəstəliklər, o cümlədən şəkərli diabet, xolesterin yüksəkliyi, yüksək qan təzyiqi aiddir. Eyni zamanda digər önəmli səbəb də genetik meyillilikdir.

***- Ürək-damar xəstəliklərinin əsas əlamətləri hansılardır? İnsan özündə hansı əlamətləri hiss etdikdə kardioloqa müraciət etməlidir?***

- Ürəyin işemik xəstəliklərinin əsas əlamətləri döş sümüyü arxasında yaranan yandırıcı, göynədici xarakterli ağrı, sıxıntı, basqı hissidir. Bəzən əlamətlər kürəyə, çənəyə, çiyinə, sol qola yayılan ağrı şəklində də özünü göstərə bilər. Bu ağrılar hərəkət edərkən artır, dincələrkən azalır və keçir.

Damar tıxanıqlığı olan xəstələrdə bəzən ağrı olmadan sadəcə təngnəfəslik şikayəti ola bilər. Bu səbəblərlə qeyd etdiyim risk faktorları olan insanların kardioloji müayinədən keçməsi mütləqdir. Bunlardan əlavə, ürəyin işemik xəstəliyinin ağrısız forması - miokardın səssiz işemiyası var ki, bu miokardın qan dövranı çatışmazlığının yalnız obyektiv əlamətlərilə təzahür edir. Xəstəlik zamanı ürəyin işemik xəstəliyinin tipik simptomları - ağrı, təngnəfəslik müşahidə olunmur, lakin diaqnostik müayinələrdə işemiya üçün xarakterik dəyişikliklər qeydə alınır. Bu xəstəlik simptomsuz getsə də, proqnoz qeyri-qənaətbəxşdir.

Profilaktik olaraq mütəmadi kardioloji müayinədən keçmək səssiz işemiyanın vaxtında aşkarlanmasına kömək edir. Ümumiyyətlə, bütün ürək-damar xəstəlikləri vaxtında aşkarlanarsa, onların müalicəsi də effektli olur.

***- Mütəxəssislər hazırda qrip infeksiyalarının infarkta və digər ürək xəstəliklərinə səbəb ola biləcəyini bildirir. Bu barədə nə deyə bilərsiniz?***

- Havaların soyuq keçməsi ürək xəstəlikləri üçün zəmin yaradır. Orqanizm soyuduğu zaman bədənimiz istilik itkisinin qarşısını almaq məqsədilə qanı daxili orqanlarımıza çatdırmaq üçün normadan çox işləməyə məcbur olur. Bu isə dolayısıyla ürək əzələsinin və damarların işini artırır. Soyuq hava səbəbindən əmələ gələn stress hormonlarının qana ifrazı ürək xəstələrinin infarkt keçirmə riskini artırır. Havaların soyuması ilə, eyni zamanda qripə yoluxma hallarında da artım müşahidə edilməkdədir. Bu infeksiya ürək-damar xəstəliklərindən əziyyət çəkənlərdə daha təhlükəlidir. Qrip virusunun miokard infarktı riskini 6 dəfə artırdığı məlumdur. Qrip virusuna yoluxanlar xəstəliyin ilk həftəsində 6 dəfə çox miokard infarktı riski daşıyır, virusun orqanizmə girməsinin 8-ci günündən etibarən isə risk normala dönmüş olur. Bundan əlavə, infeksiyalar aritmiyaların yaranmasına təkan verir, ürək çatışmazlığı xəstələrində ağırlaşmalara yol açmış olur. Soyuq və şaxtalı havalar ürək damar problemləri olan xəstələr üçün əlverişsiz və təhlükəlidir.

***- Soyuq aylarda ürək-damar xəstəlikləri kəskinləşdiyi və ürək tutmaları artdığı üçün xəstə hansı qabaqlayıcı tədbirlər görməlidir?***

- Mövsümi qripdən qorunmaq üçün peyvəndləmə olduqca önəm daşıyır. Ürək xəstələrinə infeksion xəstəliklərə yoluxmuş insanlardan uzaq durmaq, soyuq, şaxtalı və küləkli havalarda gəzməmək, ictimai sıxlıq olan yerlərdən mümkün qədər kənar olmaq, tibbi maskadan istifadə etmək tövsiyə olunur. Özünüzü infeksion xəstəliklərdən qoruyun ki, ömür boyu sizin yaşamağınız üçün fasiləsiz döyünən ürəyə yük düşməsin.

**- Maraqlı müsahibəyə görə təşəkkür edirik. Sağ olun.**

**Müsahibəni apardı:
Mərkəzi Gömrük Hospitalının
PR mütəxəssisi Dilara Zamanova**

# Bakcell Türkiyəyə xüsusi telekommunikasiya avadanlıqları göndərdi




Bakcell şirkəti Türkiyədə baş vermiş zəlzələdən əziyyət çəkənlərin və orada çalışan insanların yaxınları və müvafiq qurumlarla əlaqə saxlaya bilməsini təmin etmək üçün Türkiyəyə xüsusi telekommunikasiya avadanlıqları yollayıb.

Təbii fəlakətin baş verdiyi müxtəlif bölgələrdə "Bakcell"in dəstəyilə ümumi dəyəri 500 min manata yaxın olan 13 xüsusi telekommunikasiya avadanlığı quraşdırılacaq.

Qeyd edək ki, "Bakcell" şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı - Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini Elşad Səmədzadə elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı - Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı - Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**